# TƏHSİL SƏNƏDLƏRİNİN ALINMASI, PAYLANMASI, SAXLANMASI VƏ TANINMASI İŞİ SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

**I. Təhsil sənədlərinin tanınması işi üzrə.** Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ilin aprel ayında Azərbaycan Respublikası «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Lissabon Konvensiyasına» imza atmışdır. Ölkə Prezidentinin 06 mart 2000-ci il tarixli 346 №-li «Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında Sərəncamı ilə Azərbaycan Respublikası yuxarıda qeyd olunan Konvensiyaya qoşulmuş və onun icrası Təhsil Nazirliyinə həvalə olunmuşdur.

Bu Sərəncama və müvafiq Konvensiyanın müddəalarına əsasən hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.05.2003-cü il tarixli, 64 №-li Qərarı ilə təsdiq edilmiş «Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiya) Qaydalar»nı həyata keçirmək məqsədilə Təhsil Nazirliyinin 27.04.2007-ci il tarixli, 11/182 №-li əmri ilə xarici ölkələrin ali təhsil sahəsində verdiyi ixtisasların tanınması və xarici dövlətdə alınmış təhsilin Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi prosedurunun həyata keçirilməsi ilə bağlı Nazirliyin Aparatında Təhsil sənədlərinin tanınması işi üzrə sektor yaradılmışdır.

Sektorun və Daimi Komissiyanın fəaliyyəti nəticəsində 01.01.2004-cü il tarixdən Təhsil Nazirliyinə **5718** müraciət daxil olmuşdur. Müraciət edən vətəndaşların əksəriyyətini MDB-nin müxtəlif ölkələrində və Türkiyədə təhsil alanlar, müəyyən bir qismini isə Avropa, Amerika, Asiya və Ərəb ölkələrinin ali məktəblərinin məzunları təşkil etmişdir.

Sektor tərəfindən son altı il ərzində təqdim edilmiş sənədlər arasında **679** qeyri-qanuni fakt aşkarlanmış və onlarla bağlı Azərbaycan Respublikası ərazisində tanınmaması haqqında qərar qəbul olunmuşdur. Sektorun iş fəaliyyəti nəticəsində nostrifikasiya ilə bağlı mənfi cavab alan vətəndaşlar tərəfindən **23** saxta diplomun xarici ölkələrdə qeyri-qanuni yollarla əldə edilməsi sübuta yetirilmişdir. Vətəndaşlar tərəfindən saxta diplomların Rusiya Federasiyası, Böyük Britaniya, ABŞ-ı, Ukrayna, Qazaxıstan və Özbəkistan respublikalarında əldə edilməsi tərəfimizdən aşkar olunmuşdur. Həmçinin, ekspertlərin vətəndaşlarla keçirdiyi görüşlərə əsasən məlum olmuşdur ki, onlar arasında çoxlu sayda formal ali təhsil almış, savadsız və ixtisası haqqında məlumatı olmayan insanlar da var.

Həmçinin mənfi cavab alanlar respublika ərazisində qanunsuz fəaliyyət göstərən xarici ölkələrin ali təhsil müəssisələrinin (məntəqə və filiallar) məzunlarıdır. Onların fəaliyyəti Azərbaycan Respublikasının 1 saylı yerli İqtisad Məhkəməsinin qərarlarına əsasən dayandırılmışdır.

Mənfi cavab alanların arasında:

1. 341 nəfər - Rusiya Federasiyasının ali məktəblərinin məzunları;
2. 309 nəfər - Gürcüstanın ali məktəblərinin məzunları;
3. 9 nəfər - Ukraynanın ali məktəb məzunları;
4. 9 nəfər - ABŞ-ın ali məktəb məzunları;
5. 3 nəfər - Qazaxıstan Respublikasının ali məktəb məzunları;
6. 2 nəfər - Böyük Britaniyanın ali məktəb məzunları;
7. 2 nəfər - İsveçrənin ali məktəb məzunları;
8. 1 nəfər - Qırğızıstan Respublikasının ali məktəb məzunu;
9. 1 nəfər - Özbəkistan Respublikasının ali məktəb məzunu;
10. 1 nəfər - Alman Federativ Respublikasının ali məktəb məzunu;
11. 1 nəfər - Suriya Ərəb Respublikasının ali məktəb məzunu vardır.

Ümumiyyətlə, altı il ərzində sektor tərəfindən **181** iclas keçirilmişdir. Çıxarılan şəxsi işlərin müzakirəsi nəticəsində **4234** müraciət müsbət həll edilmiş və onların sahiblərinə müvafiq şəhadətnamələrin verilməsi haqqında qərarlar qəbul edilmişdir. Şəhadətnamə alanların arasında:

1. 1471 nəfər - Rusiya Federasiyasının ali məktəblərinin məzunları;
2. 1042 nəfər - Türkiyə Respublikasının ali məktəblərinin məzunları;
3. 845 nəfər - Gürcüstanın ali məktəblərinin məzunları;
4. 255 nəfər - İran İslam Respublikusının ali məktəblərinin məzunları;
5. 149 nəfər - Ukraynanın ali məktəblərinin məzunları;
6. 82 nəfər - Misir Ərəb Respublikasının ali məktəblərinin məzunları;
7. 63 nəfər - Qazaxıstan Respublikasının ali məktəblərinin məzunları;
8. 61 nəfər - Böyük Britaniyanın ali məktəbinin məzunları;
9. 40 nəfər - ABŞ ali məktəblərinin məzunları;
10. 27 nəfər - Özbəkistan Respublikasının ali məktəblərinin məzunları;
11. 23 nəfər - Almaniya Federativ Respublikasının ali məktəblərinin məzunları;
12. 21 nəfər - Belorusiya Respublikasının ali məktəblərinin məzunları;
13. 21 nəfər - Şimali Kipr Türk Respublikasının ali məktəblərinin məzunları;
14. 20 nəfər - Fransa Respublikasının ali məktəblərinin məzunları;
15. 17 nəfər - Qırğızıstan Respublikasının ali məktəbinin məzunları;
16. 12 nəfər - İsveç Krallığının ali məktəblərinin məzunları;
17. 9 nəfər - İraq Respublikasının ali məktəblərinin məzunları;
18. 8 nəfər - Çin Xalq Respublikasının ali məktəbinin məzunları;
19. 8 nəfər - Macarıstan Respublikasının ali məktəblərinin məzunları;
20. 6 nəfər - Çexiya Respublikasının ali məktəblərinin məzunları;
21. 5 nəfər - Koreya Respublikasının ali məktəblərinin məzunları;
22. 4 nəfər - Pakistan İslam Respublikasının ali məktəblərinin məzunları;
23. 4 nəfər - Tacikistan Respublikasının ali məktəblərinin məzunları;
24. 3 nəfər - Bolqarıstan Respublikasının ali məktəblərinin məzunları;
25. 3 nəfər - Türkmənistan Respublikasının ali məktəblərinin məzunları;
26. 2 nəfər - Polşanın ali məktəb məzunları;
27. 2 nəfər - İrlandiya ali məktəblərinin məzunları;
28. 2 nəfər - İsveçrənin ali məktəblərinin məzunları;
29. 2 nəfər - Malaziyanın ali məktəblərinin məzunları;
30. 2 nəfər - Latviyanın ali məktəb məzunları;
31. 2 nəfər - Səudiyyə Ərəbistan Krallığının ali məktəb məzunları;
32. 2 nəfər - Meksikanın ali məktəb məzunları;
33. 2 nəfər - Birləşmiş Ərəb Əmirliyinin ali məktəb məzunları;
34. 2 nəfər - Norveç Krallığının ali məktəb məzunları;
35. 2 nəfər - Kanadanın ali məktəb məzunları;
36. 1 nəfər - İndoneziya Respublikasının ali məktəb məzunu;
37. 1 nəfər - Rumıniyanın ali məktəb məzunu;
38. 1 nəfər - Yemən Ərəb Respublikasının ali məktəb məzunu;
39. 1 nəfər - Moldova Republikanın ali məktəb məzunu;
40. 1 nəfər - Nigeriyanın ali məktəb məzunu;
41. 1 nəfər - İspaniyanın ali məktəb məzunu;
42. 1 nəfər - Sudan Respublikasının ali məktəb məzunu;
43. 1 nəfər - Liviya Böyük Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin ali məktəb məzunu vardır.

Diplomların tanınması ilə bağlı müraciət etmiş digər vətəndaşların işləri bu günə kimi sektor tərəfindən baxılır. Həmin işlərin bu günə kimi baxılmasının səbəbi, vətəndaşlar tərəfindən vaxtı-vaxtında tələb olunan müvafiq sənədlərin təqdim olunmamasıdır.

Sevindirici haldır ki, ixtisasların tanınması haqqında şəhadətnamələr alanlar arasında uzaq xaricdə, xüsusilə də Avropa və Amerika Birləşmiş Ştatlarının aparıcı ali məktəblərini müvəffəqiyyətlə bitirərək ölkəmizə qayıtmış gənclərimiz də az deyildir. Xarici ölkələrin ali məktblərindən məzun olmuş vətəndaşlarımızın əksəriyyəti vətənə dönərək xaricdə aldıqları bilikləri dövlət strukturları və ölkə iqtisadiyyatının müxtəlif sahələrində uğurla tətbiq edirlər.

Onların bir çoxu respublikamızın dövlət və özəl müəssisələrində, həmçinin orta və ali məktəblərində işlə təmin olunmuşlar.

Dövlətlərarası razılaşmalar əsasında Təhsil Nazirliyinin xətti ilə xarici ölkələrə təhsil almağa göndərilmiş Azərbaycan vətəndaşlarının ali təhsil haqqında sənədlərinin nostrifikasiya proseduru sektor tərəfindən çox sadələşdirilmiş şəkildə aparılır. Bunun əsas səbəblərindən biri dövlət xətti ilə təhsil almağa göndərilmiş vətəndaşlar barədə nazirlikdə xüsusi məlumat bankının olmasıdır.

Beləliklə, son altı ilin təcrübəsi göstərir ki, xaricdə alınan ali təhsil haqqında diplomların respublika ərazisində tanınması Nazirlər Kabinetinin müvafiq qərarına, beynəlxalq təcrübə və tövsiyyələrə uyğun aparılır.

**II. Təhsil sənədlərinin alınması, paylanması və saxlanması üzrə.** 2010/2011-ci dərs ili üçün tədris müəssisələrinin məzunlarına veriləcək təhsil sənədlərinin sərfəli qiymətə, optimal müddətdə, yüksək poliqrafik səviyyədə çapınının satınalınmasını təmin etmək məqsədilə tender komissiyasında iştirak edilmişdir.

2011-ci ildə müqaviləyə əsasən Xüsusi şöbənin anbarına «Xəzər Etiket» Məhdud Məsuliyyətli Cəmiyyətindən alınan təhsil sənədlərinin qaimə-fakturala əsasən (bakalavr, magistr, mütəxəsis diplomu, attestat, şəhadətnamə, yenidənhazırlanma, tam orta təhsili haqqında attestat, akademik arayış, orta ixtisas haqqında diplom, və.s) seriyalarının, nömrələrinin ardıcılığına və düzgünlüyü nəzarət edilir.

Şöbədə olan təhsil sənədləri bərəsində ümümi hesabat, hər 3 aydan bir və ildə bir dəfə, mədaxil olan təhsil sənədləri qaimə-fakturaya əsasən təhsil müəssisələrinə verildikdən sonra anbarda qalan təhsil sənədləri barədə (bakalavr diplomu, magistr diplomu, yenidənhazırlanma diplomu, akademik arayış, ixtisasartırma vəsiqəsi, attestat, şəhadətnamə, peşə diplom və peşə attetstatı və.s) geniş məlumat hazırlayaraq Nazirliyin mühasibat uçotu və hesabat sektoruna təqdim edilir.

İl ərzində ali və orta ixtisas müəssisələrini qiyabi və əyani bitirmiş tələbələrinin diplom blanklarının alınması üçün verilmiş sənədlərin (test sürətləri, digər müəssisələrdən köçürülmüş tələbələrin Nazirliyinin razılıq məktubları) yoxlanılıb, təqdimat hazırlanılır.

2011-ci ildə MTN-nin komissiyası tərəfindən şöbənin məxfi kargüzarlıq işinin aparılması müvafiq qaydada yoxlanılmışdır.

2011-ci ildə ayrı-ayrı dövlət qrumları tərəfindən Nazirliyə daxil olan məxfi sənədlər nəzarətdə saxlanılır. İl ərzində şöbəyə 22 ədəd məxfi məktub daxil olub.

Həmin sənədlər əvvəlcədən rəhbərliyə təqdim olunur sonra isə aidiyyatı üzrə müvafiq şöbəyə aparılıb tanış edilir. Məxfi sənədlərin cavablarını hazırlandıqdan sonra, onu tam məxfi şəkildə aidiyyatı olan müəssisələrə göndərilir. Nazirliyə aid olan məxfi sənədlər şöbədə məxfi şəkildə və daim nəzərətdə saxlanılır.

2011-ci ildə Nərimanov Rayon Hərbi Komissarlıgının 4-cü bölmə müvəkkilinin iştirakı ilə şöbədə Hərbi qeydiyyat və təxsislənmə işinin təşkili və aparılması qaydası yoxlanılmışdır.

2011-ci ildə nazirliyin tabeliyində olan təhsil müəssisələrdə işləyən və təxsislənmiş hərbi mükəlləfəyətlərinin sayı haqqında hesabat (forma 6) vaxtında hazırlanıb və göndərilir.

Nazirliyinə tabeliyində olan təhsil müəssisələrdə işləyən və təxsislənmiş hərbi mükəlləfəyətlərinin sayı haqqında hesabat (forma 6) toplanmış və sonra İqtisadi İnkişaf Nazirliyinə təqdim edilməsi və ərazisində yerələşdiyimiz Nərimanov rayon hərbi komisarlığının qeydiyyatdan keçirilməsi üçün forma 6 hesabatı təqdim edilmişdir.

Hər ildə nazirlikdə çalışan əməkdaşların bronlaşdırılması və uçotu hərbi komisarlıqla birlikdə yoxlanılır və nəzarətdə saxlanılır.

2011-ci ildə təhsil müəssisələri tərəfindən 1160 ədəd məktub şöbəyə daxil olmuşdur, bunlardan 720 ədəd məktub icra olunmuşdur. Eyni zamanda vətəndaşlar tərəfindən nazirliyə 751

ədəd müraciət xarakterli ərizələr daxil olunmuşdur ki həmin ərizələr vaxtı-vaxtında araşdırılır, cavab hazırlanır və lazımı ünvanlara göndərilir.

Şöbəyə ayrı-ayrı dövlət qrumlarları və vətəndaşlar tərəfindən daxil olunmuş təhsil sənədlərinin həqiqliyi barədə müraciətlər müafiq qaydada araşdırılmışdır.

2011–ci ildə Nazirlik tərəfindən təhsil müəssisələrinə orta təhsil haqqında attestat blanklarının nömrələri yazılmışdır və xüsusi şöbə tərəfindən paylanmışdır. Təhsil şöbələrindən boş qalmış attestat və şəhadəntnamə blankları şöbəyə geri qaytarılmışdır və müvəqqəti olaraq anbarda saxlanılır.

Hər ildə bir dəfə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Kurslarına kurs keçilməsi (Ali, orta ixtisas müəssisələrinə, peşə məktəb və liseylərinə) təşkil edilmişdir.

Mülki Müdafiə Kurslarında iştirak etmək üçün ali və orta ixtisas müəssisələrə, peşə məktəb və liseylərin rəhbərliyinə telefoqramma təqdim edilmişdir.

Nazirliyin 46-25-5076/17 saylı 20.06.2011 məktubuna əsasən təhsil müəssisələrində gerbli möhürlər və künc ştampları ləğv edilməsi üçün şöbəyə təhvil verilmişdir.

2011-ci ildə tərtib edildiyi silinmə aktına əsasən 91 ədəd - gerbli möhür, 132 ədəd dairəvi möhür və 134 ədəd künc ştampı ləğvi edilmişdir.

Xüsusi şöbəyə daxil olan təhsil müəssisələrinin Nizamnamələrinin qeydiyyatı aparılmışdır.

2010-2011-ci tədris ilinin Respublika üzrə buraxılış sinif şagirdlərinin adlı siyahısı və attestaların nömrəli məlumatları şöbənin bazasına daxil edilmişdir.

Həmkarlar İttifaqı Komitəsinin Nazirlikdə işləyən əməkdaşların (xəstəlik vərəqələri, yeni il şənliklərinə bilet, maddi yardım və mükafatlandırma) sənədlərini protokollaşdırılır və mühasibatlığa təhvil verilir.